**Nadir Bəyməmməd oğlu Əkbərov**
**UNEC, doktorant. E-mail:akbarov.nadir.1@gmail.com**
**https://orcid.org/0000-0002-0465-1770**
**UOT:334.021.35; JEL: E29; E69.**

# Milli iqtisadiyyatın institusional idarəetmə çevikliyinin təmini məsələləri

***Xülasə***

*Məqalədə Azərbaycanda dövlət iqtisadi idarəetmə sistemində institusional çeviklik, iqtisadi siyasətin forma və məqsədlərinin seçimi, iqtisadi fəaliyyətin hüquqi bazasının və idarəçilik sisteminin bazar prinsiplərinin tələblərinə müvafiq təkmilləşdirilməsi məsələləri araşdırılır. Ümumiləşdirmələrlə sübut edilir ki, iqtisadi idarəetmədə faktiki olaraq inkişafın institusionallaşaması təmin edilmişdir. Məqalədə qeyd olunur ki, milli iqtisadiyyatın idarəçiliyində çevikliyin yüksəldilməsinə, institusionallığın güclənməsi kontekstindən baxılması məqsədəuyğundur. Bu baxımdan üç aspektdən tədqiqat aparılmışdır. Milli iqtisadi qanunvericiliyin təkmilləşdirilməsi, iqtisadiyyatın şaxələndirilməsi, təsərrüfat mexanizmi və fiskal siyasətin dayanıqlı artım məqsədlərinə yönləndirilməsi xüsusiyyətləri ətraflı araşdırılaraq müvafiq nəticə və tövsiyyələr formalaşdırılmışdır. Məqalənin əsas yekunları kimi, Azərbaycan iqtisadiyyatının müasir inkişaf mərhələsində institusional idarəetmədə çevikliyinin təmini məsələlərində fiskal və monetar siyasətlərin əlaqələndirilməsinin prioritet vəzifələrini inflyasiya səviyyəsinin hədəflənməsi ilə yanaşı, iqtisadi artımın stimullaşdırılması təşkil etməsi; iqtisadi artıma nail olmaq üçün fiskal və monetar orqanların müxtəlif siyasət tədbirlərinin əlaqələndirməsinin hədəflərin müəyyən edilməsi mərhələsində həyata keçirilməsi məqsədəuyğun hesab edilmişdir.*

***Açar sözlər:*** *iqtisadi idarəetmə, insitutsionallıq, şaxələndirmə, qanunvericilik, çeviklik, sistem, səmərəlilik, modernləşmə,mexanizm, artım, potensial*

## Giriş

Dövlət müstəqilliyinin bərpası ilə təxminən üst-üstə düşən xarici təcavüzün doğurduğu ağır şəraitdə, milli iqtisadiyyatın bazar münasibətləri üzərində qurulması istiqamətində əldə olunan nəaliyyətlərin kökündə təbiidir ki, bütövlükdə, məhsuldar təsərrüfatçılıq və səmərəli idarəçilik, o cümlədən iqtisadi idarəçilik dayanır. Məhsuldar təsərrüfatçığın nəticələri, bilavasitə iqtisadi artım və inkişafın bütün aspektlərində, statistik göstəricilərin dinamikasında əks olunur. Bununla yanaşı, apardığımız araşdırmalar, o cümlədən yerli və xarici alimlərin çoxsaylı müvafiq tədqiqatlarından yaranan qənaətlərə görə hesab olunur ki, transformasiya ruhlu müstəqillik dönəmində Azərbaycanda dövlətin iqtisadiyyatda iştirakının bütün özəllikləri sırasında, iqtisadi idarəçilikdə dövlətin funksionallığının təkamülünün, idarəetmə sisteminin institusionallığının permanent təkmilləşdirilməsi şəraitində baş verməsi, xüsusi vurğulanmalıdır. Nəzəri və təcrübi araşdırmalar göstərir ki, adətən dövlət idarəçiliyinin, o cümlədən iqtisadi idarəçiliyin əsas istiqamətlərini insanların davranışı və fəaliyyətinin qəbul olunmuş sosial normalar, adətlər və davranış normaları nəzərə almaqla, ictimai həyatın nizamlanması, tənzimlənməsi və idarə edilməsinin forma və vasitələrininin öyrənilməsi və istifadəsi təşkil edir. Başqa sözlə, milli iqtisadiyyatın idarə olunmasının keyfiyyəti və nəticəliliyi, onun institusional idarəçilik xüsusiyyətlərindən asılıdır.

### Milli iqtisadi idarəçiliyin çevikliyinin qanunvericilik şərtləndiriciləri

Milli iqtisadiyyatın təşəkkülü prosesində Azərbaycanda dövlətin iqtisadi idarəçiliyində institusionallığın çevikliyi, iqtisadi siyasətin forma və məqsədlərinin seçimi, iqtisadi fəaliyyətin hüquqi bazasının və idarəçilik sisteminin liberal bazar prinsiplərinin tələblərinə adekvat permanent təkmilləşdirilməsi aspektlərində daha dolğun əks olunur. Milli

idarəçilikdə, faktiki olaraq iqtisadi inkişafa institusionallamış proses yanaşması təmin edilmişdir. Belə yanaşmanın doğruluğunu aydınlaşdırmaq üçün, fikrimizcə, dünya təcrübəsindən bəzi məqamlara diqqət edilməsi vacibdir. Bildiyimiz kimi, elmi-texniki tərəqqi və iqtisadi inkişafın dinamikiliyi, modernləşdirmənin bütün mərhələlərində mövcud iqtisadi nəzəriyyələrin çatışmazlıqları və problemləri fərqli aspektlərdən aşkarlayır. Məsələn institusional nəzəriyyələr, modernləşdirilmədən yaranan narazılqları adətən, iqtisadi inkişafın zəruri səviyyəsinin təmin edilməsindəki problemlər, zəif alıcılıq qabiliyyəti, qeyri-effektiv istehlak tələbi, aşağı yığım və investisiya kimi ənənəvi amillərdə deyil, dəyərlərin mahiyyəti, ənənə, mədəniyyət, yadlaşma kimi müstəvilərdə axtarır. Hesab edirik ki, bunlar doğru qənaətlərdir. Azərbaycanda transformasiya dövründə iqtisadi problemlərin bir çoxunun yaranmasının səbəbi, məsələn, uzun illər ərzində əhalidə “planlı iqtisadiyyatın” formalaşdırdığı iqtisadi təfəkkür - xüsusilə gündəlik tələbat malları və xidmətlərin qiymətlərinin dövlət tərəfindən tənzimlənməklə ən aşağı səviyyədə saxlanılması zərurəti ilə bağlı və s. meyllərdə əks olunur. Doğrudur, burada bəzi müstəsna xarakterli məqamlar mütləq nəzərə alınmalıdır. Belə məqamlara ilk növbədə, cəmiyyətin bütövlükdə və o cümlədən iqtisadiyyatda modernizasiyanın əhali tərəfindən dəstəklənməsi üçün onun vasitələrinin hansısa “milli” xüsusiyyətlərə malik olmasının vacibliyini əsas hesab edən Mürdal yanaşması və onun “Asiya dramı” dərsləri aid edilə bilər. Belə ki, Qərb ənənələrinin əksinə olaraq, inkişafın dövlətin təmin etdiyi planlaşdırmanın nəticəsi kimi dəyərləndirilməsinə rəğmən Mürdal, hesab edir ki, zəif inkişafın səbəbi, xarici kapitalın çatışmazlığında yox, daha çox işçi qüvvəsinin tam istifadə edilməməsindədir.[7]

Elmi fikir tarixində, iqtisadi artımın institusional yanaşma daxilində həllini öyrənən, ən mükəmməl yamaşma isə C.M.Keyns nəzəriyyəsi hesab edilir. Liberal iqtisadiyyatın “nüvəsini” təşkil edən pulun və dövlətin rolunu, iqtisadi artımın multiplikator və akselerator mexanizmi vasitəsi ilə təmin edilməsini ehtiva edən belə yanaşmanın Azərbaycan reallığında araşdırılması, fikrimizcə maraqlı nəticələrə gətirə bilər. Bununla yanaşı, iqtisadi artıma institusional strukturun təsirlərinin qiymətləndirilməsində, bir sıra digər yanaşmalar, o cümlədən, ölkələr arasında məhsuldarlıqda müşahidə olunan fərqlərin səbəblərini siyasi və iqtisadi institutların fərqliliyində axtaran baxışlar, təkmil rəqabətli bazarların mövcudluğu şəraitində səmərəli siyasətin seçilməsi və yaxşı iqtisadi nəticələrə nail olunmasının hakimiyyətin siyasi–ideoloji xüsusiyyətlərindən asılı olmaması haqqında, mahiyyətcə institutların rolunun məhdudluğunu ehtiva edən Kouz yanaşması, eləcədə iqtisadi artımın institutlarla deyil, insan kapitalının yığımı ilə əlaqələndirilməsi təklif edən alternativ baxışlara da diqqətin cəlb edilməsi məqsəduyğundur. Azərbaycan iqtisadiyyatında idarəçilikdə çevikliyin yüksəldilməsi tədbirlərinə artım potensiallı institusionallığın gücləndirilməsi kontekstində baxdıqda tədqiqat sferasına ilk növbədə milli iqtisadi qanunvericiliyin təkmilləşdirilməsi məsələləri aid edilməlidir. Qeyd olunan məqsədlər baxımından ikinci mühim məsələ, iqtisadiyyatın şaxələndirilməsi hesab olunmalıdır. Burada artım və inkişafın xarakterinin yaxşılaşdırılması ilə yanaşı, Mürdalın “işçi qüvvəsinin tam istifadəsi” tezisi baza meyarı kimi qəbul edilə bilər. Üçüncü məsələ, isə fikrimizcə, təsərrüfat mexanizmi və fiskal siyasətin dayanıqlı artım məqsədlərinə, ilk növbədə Keyns və Kouz nəzəriyyələrinə müvafiq yönləndirilməsi məqsədəuyğun hesab edilir. Formal məntiq və əlbəttə struktur formalaşdırıcı təsir baxımından, iqtisadi idarəetmənin çevikliyinin institusional təminatında ilkin məsələ, müvafiq qanunvericilik mühitinin formalaşdırılmasıdır. Bildiyimiz kimi, Azərbaycan iqtisadiyyatında çağdaş qanunvericilik mühiti, müstəqillik dönəmində formalaşmağa başlamaqla bir neçə keyfiyyət mərhələsindən keçmişdir. Fikrimizcə müstəqilliyin bərpasından 2000-ci ilədək olan dövrü bazar münasibətlərinin və bütöv milli iqtisadi sistemin formalaşdırıldığı dövrü, ilkin qanunvericilik mərhələsi kimi

identifikasiya edə bilərik. Bu dövrdə Azərbaycanda qanunvericilik mühitində: liberal iqtisadi münasibətlər və bütövlüyə malik unitar iqtisadi sistemin formalaşdırılması kimi ki əsas vəzifə üstünlük təşkil edirdi. Dövrü səciyyələndirən əsas əlamətlər - qanunların qəbulunda düşünülmüş sistemliliyin olmaması, hazırlıqsız, yəni yan təsirlər kompleksinin nəzərə alınmaması, "psevdo texnokratikliyi" və mahiyyət etibarı ilə radikal xarakterliliyi hesab oluna bilər. Bu dövrdə qəbul olunan qanunlar və inkişaf strategiyaları ilk növbədə bazar münasibətlərinin tez zamanda bərqərar olması, dövlət əmlakı və torpağın sürətli özəlləşdirilməsi, böyük ehtiyac duyulan xarici investisiyaların cəlbi üçün stimullaşdırıcı şəraitin yaradılması, beynəlxalq təşkilatlarla münasibətlərin sürətli intensivləşdirilməsi, dövlətin iqtisadi fəaliyyətdə iştirakı xarakterinin transformasiyası kimi hədəflərə yönəlirdi. Əlbəttə bu xarakterik xüsusiyyətlər təkcə Azərbaycan iqtisadiyyatı üçün deyil, eyni zamanda bütün transformasiya ölkələri üçün xas idi. Lakin Azərbaycan nümunələrinin çox mühim özəllikləri, torpağın və dövlət əmlakının özəlləşdirilməsi, xarici investisiyanın cəlbinin stimullaşdırılması, beynəlxalq təşkilatlarla əlaqələrdə radikal qərarların qəbulu və s kimi istiqamətlərdəki dövlət siyasətinin qətiyyətliliyi və çevikliyi xüsusi əhəmiyyətə malik olmuşdur. Belə qətiyyətlilik və çevikliyin bütün nəticələrini müsbət hesab etmək mümkün olmasa da qeyd olunmalıdır ki, hadisələrin sonrakı inkişafı göstərdi ki, dərin iqtisadi tənəzzülün qarşısının alınması və inkişafın stabilliyinin təmin edilməsi kimi ağır problemlərin həlli ilə yanaşı, həmin dövrdə islahatların əsas trendi ümumən düzgün müəyyənləşdirilmişdi. Milli qanunvericilik mühitinin formalaşmasında ikinci mərhələ stabilləşmiş inkişaf potensialının bərqərar olması və böyük neft gəlirlərinin daxil olması ilə 2004-cü ildən başlayan və 2015 ci ilədək davam edən inkişafın kompleksliliyi və dayanıqlığı mərhələsi hesab olunmalıdır. 2003–cü ilin oktyabrında Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyətə başlayan İlham Əliyev, ötən müddətdə əldə olunmuş stabilliyin bazasında dövlətin iqtisadi siyasətində, o cümlədən, idarəetmədə sistemliliyin gücləndirilməsi, inkişafın kompleksliliyi və iqtisadiyyatın şaxələndirilməsi məqsədlərinə yönəlik, ciddi dəyişiklərin olacağını bəyan etdi. Qeyd etməyi məqsədə müvafiq hesab edirik ki, belə dəyişiklərin şərtləndiricisi və təcəssümü olaraq, rəsmi məlumatlara əsasən, son iyirmi ildə Azərbaycanda milli səviyyədə 250-dək proqram xarakterli sənəd, o cümlədən 15 Konsepsiya, 16 Milli Strategiya, 12 Strateji Yol Xəritəsi, 100-dən çox Dövlət Proqramı, 10 Milli Fəaliyyət Planı, 70-dək Tədbirlər Planı və Proqramı və qəbul edilmişdir [8,9]. İlk belə mühim təşəbbüs kimi, 2004-cü ildə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı [2004-2008-ci illər] qəbul edildi. Bu proqram, uzun illər ərzində milli iqtisadi siyasətdə diqqətdən kənarda qalmış "regional siyasəti" aktuallaşdırmaqla, bir tərəfdən, ölkə regionlarının sosial-iqtisadi inkişafında disproporsiyaların yumşaldılması, digər tərəfdən isə, yerli iqtisadi faktorların, o cümlədən işçi qüvvəsi və təbii resursların fəal iqtisadi dövriyyəyə cəlbini stimullaşdırmaqla, milli iqtisadi artımın sürətləndirilməsi və əhalinin sosial rifahını yaxşılaşdırılması kimi çox mühim hədəfləri ehtiva edirdi. Bütövlükdə regional inkişaf məsələsinə, milli iqtisadi siyasətin mühim tərkib hissəsi kimi önəm verilməsi, bu dövrün iqtisadi siyasətini xarakterizə edən ən qabarıq əlamətlərdən hesab olunmalıdır. İlk regional Dövət Proqramının uğurlu icrası, həmin proqramın sonrakı illərdədə, 2009-2013 və 2014-2018 illərdədə yeniləşdirilməsini şərtləndirən mühim faktor olmuşdur. Qeyd olunmalıdır ki, hazırda icra olunan sayca 4-cü Regional İnkişaf Proqramı 2019-2023 illəri əhatə etməklə əvvəlki proqramların məntiqi davamı hesab olunur. İlk üç regional proqramın icrası sayəsində, əvvəlki bölmələrdə qeyd olunduğu kimi, rəsmi qiymətləndirmələrə əsasən, qlobal və milli səviyyələrdə böhranların tezliyinin yüksək olduğu, 2004-2018-ci illər ərzində, Azərbaycan iqtisadiyyatında ÜDM istehsalı 3,3 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə 2,8 dəfə, sənaye üzrə 2,6 dəfə, kənd təsərrüfatı üzrə 1,7 dəfə artmışdır. Bu müddətdə ölkədə 1,5

milyonu daimi olmaqla 2 milyondan çox yeni iş yeri, 100 mindən çox müəssisə yaradılmış, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,1 faizə enmişdir. Nəticədə regionların iqtisadi potensialının artması, infrastruktur təminatı, kommunal xidmətlərin keyfiyyətinin, biznes və investisiya mühitinin yaxşılaşması və əhalinin rifahının yüksəlməsi, bütövlükdə milli iqtisadi artımın sürətlənməsi və inkişafın dayanıqlığının təmin olunmasına əlverişli imkanlar yaratmışdır [8]. Bu dövrdə mili iqtisadi qanunvericiliyin təkmilləşdirilməsində əsas məqamlar, qanunvericilik mühitinin iqtisadi münasibətlərin yetərli liberallığını təmin etməsi, qanun normalarının azad rəqabətliliyi və müqavilə öhdəliklərinə əməl edilməsinin təminatı potensialına malik olması və s ilə yanaşı, süni maneələr yaradan "qanun sevərlik" meyillərinin qarşısının alınması kimi identifikasiya edilə bilər. Bu mərhələdə milli qanunvericiliyimizdə yaranan Vergi və Gömrük məcəllələri, Büdcə sistemi haqqında [2002 il] və s. qanunları, Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı [2003-2005], "Azərbaycan 2020: Gələcəyə baxış" konsepsiyası və digər çoxsaylı sistem yaradıcı sənədlər, fikrimizcə yuxarıda şərh olunan qiymətləndirməninin təsdiqi hesab oluna bilər.

Araşdırmalar göstərir ki, bu dövrdə inkişafın yeni mərhələyə çıxmasını daha qabarıq ifadə edən mühim addım 2012-ci ildə "Azərbaycan 2020: Gələcəyə baxış" konsepsiyasının qəbulu olmuşdur [1]. Konsepsiyanın mahiyyyyətini onun başlıca strateji məqsədinin identifikasiyası tam təzahür etdirir. Konsepsiyada davamlı iqtisadi artımla yanaşı, inkişafın digər tərkib hissələri də dövlət siyasətinin diqqət mərkəzinə çıxarılmışdır. Yüksək hədəflərə nail olunması üçün Konsepsiyanın əsas çağırışları da özlüyündə olduqca maraqlı və Azərbaycanın iqtisadi siyasəti üçün yeni hesab oluna bilər. Milli qanunvericilik bazasının təkmilləşdirilməsinin üçüncü, cari mərhələsi fikrimizcə 2015-ci ldə həyata keçirilmiş iki addımlı devalvasiya ilə başlayır. Bu dövrdə Azərbaycan iqtisadiyyatı əslində iri neft gəlirləri hesabına böyük sürət almış və eyni zamanda intensiv böyümədən "qızma" halına gəlmiş işlək mexanizmə çevirilməkdə idi. Doğrudan da 2015-ci ildə Azərbaycan iqtisadiyyatı bir çox parametrlər üzrə dünyada fenomenal böyümə nümunəsinə çevirilmişdir. Yaranmış şərait iqtisadi siyasətin bütün kompleksində təxirəsalınmaz korrektələri zəruri etdiyindən hesab etmək olar ki, devalvasiya qərarı zamanında verilmiş və sonrakı dövrdə inkişafa yaratdığı imkanlar baxımından olduqca faydalı olmuşdur. Devalvasiya qərarı, milli valyutanın sürətli möhkəmlənməsinin tranzitiv xarkterli iqtisadiyyatda mənfi təsirlərinin qarşısının alınması, o cümlədən valyuta ehtiyatlarının, "bahalı "manatın məzənnə kursunun qorunması kimi, qeyri-məhsuldar xərclənməsinin dayandırılması ilə yanaşı, milli iqtisadiyyatın şaxələndirilməsi və davamlı iqtisadi artım kursuna zəruri düzəlişlərin verilməsi kimi vaxtı çatmış addımların atılmasına əsaslı zəmin yaratdı. Fikrimizcə, məhz əslində məcburi devalvasiya, iqtisadi siyasətdə aksentlərin əsaslı dəyişiklərini şərtləndirdi. Bu baxımdan ən ciddi addım əlbəttə ki, iqtisadi siyasətdə şaxələndirmənin prioritetliyinin təmin edilməsi, davamlı artım xəttinin, dayanıqlı və inklyuziv inkişaf hədəfləri ilə əvəzlənməsi və iqtisadi siyasətdə proqramlığın gücləndirilməsi kimi, ciddi əlamətləri özündə birləşdirir. Araşdırmalar göstərir ki, yol xəritələrinin qəbulundan ötən dövrdə mili iqtisadi siyasətdə müşahidə olunan mühim xüsuiyyətlərdən biri, dövlət aktivlərindən istifadə sahəsində ciddi islahatların bəyan edilməsi və tədriciliklə reallaşdırılması təşkil etmişdir. 2017-ci ildə Dünya Bankı tədqiqat qrupunun Azərbaycanda DMM-lərdə Şəffaflıq və Səmərəliliyin Təşviqi üzrə texniki yardım layihəsi [Layihə 162972] çərçivəsində təqdim etdiyi "Azərbaycan Respublikası: Dövlətə məxsus müəssisələrdə Korporativ idarəetmə və mülkiyyət" tədqiqat-analitik məruzədə [4] mahiyyət etibarı ilə ölkəmizdə dövlət aktivlərini, xüsusi ilə dövlət mülkiyyətinin istifadəsi təcrübəsi, idarəetmədə hesabatlılığın və şəffaflığın gücləndirilməsi istiqamətində aparılan islahatların xüsusiyyətləri və onların mütərəqqi dünya təcrübəsi baxımından əsaslı dəyərləndirilməsi əks olunmuşdur. Dünya Bankı ekspertləri hesab edir ki, Azərbaycanda indiki mərhələdə

formalaşmış, qeyri-mərkəzləşdirilmiş mülkiyyət modelindən mülkiyyətçi funksiyasının yüksək peşəkarlığını ehtiva edən daha mərkəzləşdirilmiş modelə keçilməsi məqsəduyğundur. Bizim fikirmizcə, dövlət strukturlarının və çoxsaylı yerli ekspertlərin müvafiq qiymətləndirmələri ilə səsləşən bu məruzə, ölkəmizdə çoxdan aktual hesab edilən, dövlət aktivlərindən istifadənin səmərəliliyinin yüksəldilməsi məsələsinin diqqət mərkəzinə çıxmasını şərtləndirən amillərdən biri olmuşdur. Belə ki, ötən dövrdə bir neçə dəfə iri dövlət müəssisələri, o cümlədən Azərsu, ARDNŞ kimi struktur yaradıcı müəssisələrin fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi haqqında mühim siyasət sənədlərinin qəbul edilməsi bu məsələdə hökümətin ciddi niyyətlərini ifadə edir. 2020 ildə Azərbaycan İnvestisiya Holdinqinin [AİH] yaradılması və 21 iri dövlət şirkətinin onun idarəçiliyinə verilməsi haqqında, milli iqtisadiyyatımız üçün çox vacib və strateji əhəmiyyətli qərar vermişdir. AİH yaranması zərurəti onun nizamnaməsində, müasir şəraitdə iqtisadi inkişafın sürətləndirilməsinin, bazar münasibətlərinin hərtərəfli dərinləşdirilməsi, dayanıqlı özəl mülkiyyətin genişlənməsi, nəticəlilik prinsiplərinə söykənən idarəçiliyin təmin edilməsi ilə mümkünlüyü prizmasından əsaslandırılmışdır. Hesab edirik ki, bu doğru qiymətləndirmədir. AİH yaradılmasından ötən dövrdə qeyd olunan məqsədlərin realizasiyası istiqmətində indiyədək aparılan işlər onu deməyə əsas verir ki, dövlət aktivlərində istifadənin səmərəliliyinin yüksəldilməsi bütövlükdə Azərbaycan iqtisadiyyatında artım və inkişaf potensialının genişləndirilməsi imkanları olduqca tutumludur.

Qlobal Pandemiyanın davam etdiyi və sürətlə genişləndiyi dövrdə, Azərbaycanın məkrli xarici təcavüz sayəsində 30 ildən artıq müdddətdə davam edən ərazi bütövlüyü probleminin həlli ilə nəticələnən Möhtəşən Zəfərli Vətən müharibəsindən dərhal sonra, 2021 ilin fevral ayında təsdiqlənmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" [02.02.2021] qeyd edilmiş qənaətlərimizin əyani sübutu hesab edilə bilər. Belə ki, ciddi iqtisadi itkilərin və qarşıda dayanan çox böyük investisiya tutumlu Qarabağın Bərpası perspektivlərinə rəğmən, hökumət bu sənədlə Azərbaycanın yeni inkişaf magistralının ideoloji nüvəsininin "Milli sosial rifah səviyyəsinin davamlı artması məqsədilə yüksək, dayanıqlı, inklüziv və başlıca olaraq özəl təşəbbüslərə arxalanan iqtisadi artımın sürətlənməsi, azad edilmiş ərazilərə əhalinin qayıdışının təminin təşkil edəcəyini bəyan edir. Milli priorittelərin təsdiqi haqqında Prezident sərəncamında deyildiyi kimi, "Müstəqil və suveren Azərbaycan dövləti postpandemiya və postkonflikt dövründə keyfiyyətcə yeni olan və 2021-2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olur. Ölkənin ərazi bütövlüyünün bərpası ilə səciyyələnən yeni strateji dövrdə dərin struktur-institusional islahatlar hesabına yüksək iqtisadi artım mənbələrinin tapılması vasitəsilə Azərbaycan dövlətinin qüdrətinin daha da artırılması, yüksək rifah cəmiyyətinin qurulması, azad edilmiş bölgələrə tarixi qayıdış və əbədi məskunlaşma təmin edilməlidir" [2]. Qeyd olunanları, qlobal iqtisadi reallıqlar və yeni inkişaf mərhələsində qarşıya qoyulmuş məqsədlər nəzərə alaraq Hökumət, ölkənin uzunmüddətli inkişaf vektorunun, əsas sosial-iqtisadi inkişaf istiqamətlərinin və buna uyğun milli prioritetlərin müəyyən olunmasını "zəruri tələb" - yeni çağırış kimi identifikasiya etmişdir. Bəyan edilmiş "Milli proritetlərin" birincisi, "Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat"ın formalaşması, uzunmüddətli dövrdə iqtisadi artımn "sağlam və tarazlı" olmasını mühim prinsip olaraq təsdiq edir. Bu prinsipə görə, belə iqtisadi artımın ölkənin davamlı inkişafı üçün möhkəm zəmin yaratması üçün o davamlı və yüksək sürətli, daxili və xarici təsirlərə dayanıqlı olmalıdır." Milli proritetlərin" məntiqinə əsasən, belə xüsusiyyətlərə malik olan iqtisadi artım: yüksək gəlirli iş yerləri yaratmaqla həyat səviyyəsinin ilbəil yaxşılaşmasını təmin etməli; iqtisadi artımın davamlı olması, milli iqtisadiyyatın dərin şaxələnməsi, mallar və xidmətlər üzrə ixrac potensialının tam reallaşdırılması üçün yeni "hərəkətverici qüvvələr" tapılmalı; iqtisadi artım qabaqcıl və effektiv özəl təşəbbüslərə

söykənməli, dövlət və özəl sektor əməkdaşlığı gücləndirilməli. Beləliklə, araşdırmalarımız göstərir ki, ümumən uğurlu nəticələr fonunda indiki mərhələdə, iqtisadiyyatın idarəçiliyində çevikliyin artırılması və proqramlığın gücləndirilməsi, qanunvericilik mühitinin təkmilləşdirilməsi və liberal təsərrüfatçılıqda qabaqcıl dünya təcrübəsindən bəhrələnməklə iqtisadi fəaliyyətin bütövlükdə səmərəliliyinin yüksəldilməsinə istiqamətlənməklə yanaşı, dövlətin funksionallığının gücləndirilməsinə hədəflənməlidir.

**İqtisadi idarəçiliyin institusionallaşmasında şaxələndirmə amili**

Araşdırmalar göstərir ki, müasir çağırışları nəzərə aldıqda, iqtisadi artımın institusional tənzimlənməsində milli iqtisadiyytın şaxələndirilməsi ən mühim islahatlaşdırma tədbirlərindən biri hesab olunur. İqtisadiyyatın şaxələndirilməsi anlayışı geniş əhatə dairəsinə mailikdir. Bu ilk növbədə formalaşmış iqtisadi struktur, seçilmiş inkişaf modeli və iqtisadi siyasət paradiqmasından və s. asılı məsələdir. Ona görədə ayrı ayrı ölkələrdə və ekspertlərin fərqli yanaşmaları da fərqli ola bilər. Azərbaycanda bir çoxları iqtisadiyyatın şaxələndirilməsini faktiki olaraq iqtisadi artım və inkişaf dinamikası ilə, yəni daha çox bilavasitə fiziki parametrlərlə qiymətləndirir. Lakin, xüsusi ilə tranzitiv iqtisadiyyatlarda şaxələndirməyə belə yanaşma fikrimizcə doğru deyildir. Dünya təcrübəsindən məlum olduğu və iqtisadi nəzəriyyənin məhşur konsepsiyaları ilə təsbit edildiyi kimi, resursların səmərəliliyi və artımın dayanıqlığı tələblərini nəzərə aldıqda, yalnız böyümə və genişlənməni ehtiva edən şaxələndirmə siyasəti heç də həmişə arzu olunan nəticəliliyi doğura bilmir. Azərbaycan iqtisadiyyatı prizmasından yerli tədqiqatçıların bir qismi haqlı olaraq hesab edir ki, indiki mərhələdə milli şaxələndirmə ilə bağlı siyasət mövqeyinin cari və retrospektiv təhlili, ümumiyyətlə bu iqtisadi kateqoriyanın mahiyyət və terminoloji kontekstinə yeni baxış zəruridir. Məsələn, hesab edilir ki, bizim təcrübədə "iqtisadi şaxələndirmə" kateqoriyasının iqtisadi ədəbiyyatlarda yer alan və daha çox "statik" xarakter daşıyan yanaşma əsasında deyil, mövcud qlobal iqtisadi çevrilmələrin fonunda daha "dinamik" şərh edilməsi məqsəduyğundur. A.Həsənlinin qənaətincə, "şaxələndirmənin yalnız istehsal və ya ixrac yönümlü çeşidlilik kimi şərh edilməsi, iqtisadi fəaliyyətin və iqtisadi düşüncə məktəblərinin başlıca tədqiqat obyektlərindən olan dəyər kateqoriyasının dəyişkən təbiətinin müəyyən baxımdan gözardı edilməsi ilə nəticələnir." Eyni zamanda müəllif qeyd edir ki, bütövlükdə dünya təcrübəsi iqtisadi şaxələndirmənin heç də tam olaraq iqtisadi inkişafın başlıca təminedicisi kimi çıxış etmədiyini göstərir [6]. Azərbaycanda, iqtisadi şaxələndirmə probleminə münasibətdə faktiki addımların dəyərləndirilməsinə gəldikdə qeyd etməyi məqsəduyğun hesab edirik ki, fikrimizcə, bazar iqtisadi münasibətlərinə əsaslanan inkişaf potensialı, bütövlüyə, harmonikliyə, çevikliyə və inkyuzivliyə malik keyfiyyətlərin mövcudluğu, burada həlledici meyarlar olmalıdır. Aparılan araşdırmalar göstərir ki, ağır və kəskin fluktasiyalı formalaşma dövrü keçirən milli iqtisadiyyatda qeyd olunan meyarların bəzilərinin təmin olunması, məsələn artım və inkişaf potensialının təbii və yaradılmış resurslar hesabına "özünü inkişaf qabiliyyətinin bərpası" səviyyəsinə çıxarılması müəyyən qədər səmərəli hesab edilə bilər. Digər tərəfdən, Mürdal nəziyyəsinin, inkişaf etməkdə olan ölkələrdə iqtisadi artımım mühim hədəflərindən birinin məşğulluğun səviyyəsinin yüksəldilməsi olması haqqındakı mühim mülahizəsinə müvafiq olaraq, Azərbaycanda 2004-cü ildən sonra dövlətin iqtisadi siyasətində məşğulluğun səviyyəsinin davamlı olaraq artırılması xəttinin qorunması, həmdə şaxələndirilmənin aparıcı trendlərindən biri kimi dəyərləndirilməlidir. Lakin qeyd edilməlidir ki, bütövlükdə artım və inkişaf potensialının tam bərpası haqqında danışmaq olmaz. Məsələn, əldə olumuş uğurlara rəğmən, ümumi məhsul istehsalı və dövlət büdcəsinin formalaşması mənbələrinin, həmçinin məşğulluğun strukturu halədə tarazlı və dayanıqlıq meyarlarına adekvat deyildir. Yəni bu mühim "müstəvilərdə" neft sektorunun və dövlət sektorunun həlledici dominantlığı halədə qalmaqdadır. Ona görə də Azərbaycan

iqtisadiyyatının strukturunu bütövlükdə təkmil, potensiala adekvat, dayanıqlıq və tarazlıq çağırışlarına müvafiq şaxələndirilmiş hesab etmək mümkün deyildir. Şaxələndirilmə baxımından milli iqtisadiyyatının çağdaş institusional strukturunu da rəvan hesab etmək olmaz. Belə ki, istehsal sahələrinin coğrafi yerləşməsi, funksional sahəvi və sektorial strukturu, məşğulluğun strukturunda resursların fəal iqtisadi dövriyyəyə cəlbi və effektiv istifadəsinin təmin edilməsi baxımdan ciddi disproporsiyaların olduğunu göstərir. Mili iqtisadi siyasətdə proqramlılığın gücləndirilməsi, iqtisadi fəaliyyətin səmərəliliyinin yüksəldilməsi və neftdən asılılığın azaldılması istiqamətində aparılmış struktur və institusional islahatlarının nəticəliliyinin yüksəkliyini təmin edilməsi, həmçinin şaxələndirmə prizmasından mühim amilərdən biri hesab edilmişdir.

**Milli iqtisadiyyatın institusional çevikliyi istiqamətləri**

Milli iqtisadiyyatın institusional idarəetmə çevikliyinin təmininatının mühim istiqamətlərindən biri də təsərrüfat mexanizmi və fiskal siyasətin dayanıqlı artım məqsədlərinə effektiv yönləndirilməsi hesab edilməlidir. Əslində bəzi prizmalardan təsərrüfat mexanizminin təkmilləşdirilməsi özü də şaxələndirmənin üzvü hissəsi kimi qəbul edilə bilər. Belə ki, məlum olduğu kimi, xüsusi ilə transformasiya ölkələrində, fiskal siyasət, təsərrüfatçılıq mühinin formaşması, həmçinin bütövlükdə iqtisadi artım və inkişafın təmin edilməsində fəal strukturlaşdırıcı xüsusiyyətlərə malikdir. Fiskal siyasətin mərkəzində isə vergiqoyma və vergi inzibatçılığı dayanır. Təcrübə göstərir ki, iqtisadi artım və makroiqtisadi tarazlıq baxımından vergiqoyma, iqtisadi subyektlərin davranışına, gəlirlərin bölüşdürülməsi vasitəsilə isə inkişafın inklyuzivliyinə və bütövlükdə iqtisadi səmərəliliyə ciddi təsir göstərir. Konkret istiqamətlərə gəldikdə isə, məlum olduğu kimi fiskal siyasət, milli iqtisadiyyatda iqtisadi artım, inflyasiya səviyyəsi, faiz dərəcəsi, valyuta məzənnəsi, əmək haqqı səviyyəsi kimi mühim iqtisadi parametrlərə və proseslərə əhəmiyyətli təsir göstərir. Bununla yanaşı vergi qanunvericiliyi və təcrübəsi ilə bağlı, bizim çıxarılan mühim qənaətlərdən biri ondan ibarət olmuşdur ki, milli vergiqoyma və vergi inzibatçılığının əsas çatışmayan cəhətlərindən biri onun kifayət qədər dayanıqlı olmamasıdır. Hesab edirik ki, bu amil ölkəmizdə fiskal siyasətin makroiqtisadi tənzimləmə vasitəsi kimi istifadə edilməsi imkanlarını nisbətən məhdudlaşdırmışdır. Qeyd etməyi vacib hesab edirik ki, mahiyyət baxımından ölkəmizdə vergilərin səviyyəsinin tez-tez dəyişməsini biz yalnız iqtisadi idarəçilikdə çevikliyin təzahürü kimi deyil, eyni zamanda təsərrüfatçılıq mühitinin dayanıqlığını aşağı salan amil kimi dəyərləndiririk. Çünki, təsərrüfat mühitinin sürətli dəyişkənliyi investisiya cəlbediciliyini aşağı düşməsi, vergi inzibatçılığının mürəkkəbləşməsi, subyektiv amillərin güclənməsi və s. kimi arzu olunmaz nəticələrə rəvac verə bilir. Digər tərəfdən, araşdırmalar göstərir ki, ölkədə gəlirlərin əhəmiyyətli hissəsinin dövlət büdcəsi vasitəsilə bölüşdürülməsi onun iqtisadi parametrlərə təsirinin araşdırılmasını zəruri edir. Belə ki, məlum olduğu kimi, M.Firidmenin fərziyəsinə əsasən, inflyasiyanın dəyişkənliyi iqtisadi artıma zərərli təsir göstərir. Fiskal siyasət isə inflyasiyaya dövlət büdcəsinin kəsrinin artması, həm də fiskal şoklar vasitəsilə təsir göstərir. Rikardo ekvivalentliyinə əsasən dövlət büdcəsinin xərclərinin maliyyələşdirilməsi baxımından vergilərin səviyyəsinin artırılması ilə borclanma ekvivalentdir. Belə ki, vergilərin səviyyəsinin sabit qalması şəraitində borclanma hesabına büdcə kəsrinin maliyyələşdirilməsi, gələcəkdə bu borcların vergilər hesabına ödənilməsini zəruri edəcəkdir. Eyni zamanda, nəzərə alınmalıdır ki, büdcənin cari xərclərinin dəyişməsi daxili tələbin tənzimlənməsi baxımından əhəmiyyətli olsa da, iqtisadi artım baxımından xərclərin investisiya tutumunun mühim əhəmiyyəti vardır. Məlum olduğu kimi, fiskal siyasət iqtisadi parametrlərə qısa və uzunmüddətli dövrlərdə fərqli təsir göstərir. Belə ki, iqtisadi durğunluq dövründə stimullaşdırıcı fiskal siyasət iqtisadi artım üçün əlverişli şərait yaradır. Bununla yanaşı, fiskal siyasətin iqtisadi artıma uzunmüddətli təsiri əsasən büdcənin əsaslı xərcləri ilə formalaşır. Qeyd edilənlərlə yanaşı, neftə əsaslanan

iqtisadiyyatda sərəncamda qalan gəlirlərin əsas hissəsinin dövlətin sərəncamında olması şəraitində dövlət büdcəsi, qeyri-neft sektoruna əlavə resursların cəlb edilməsi vasitəsinə çevrilir. Bu baxımdan, neft gəlirlərinin dövlət büdcəsi vasitəsilə qeyri-neft sektoruna yönəldilən hissəsinin həcminin artım tempi iqtisadi artımda mühim rol oynaya bilər. İqtisadi artıma nail olmaq üçün fiskal və monetar orqanların müxtəlif siyasət tədbirlərinin əlaqələndirməsinin əsasən qarşıya qoyulan hədəflərin müəyyən edilməsi mərhələsində həyata keçirilməsi məqsədəuyğundur. Fiskal orqanının iqtisadi artım tempini yüksəltmək səyləri inflyasiya səviyyəsinin artımına, monetar orqanların qiymətlərin sabit saxlanmasına yönəldilmiş tədbirləri isə iqtisadi artım tempinin məhdudlaşmasına səbəb olursa, iqtisadi resursların səmərəsiz istifadəsi müşahidə oluna bilər. Buna görə də, hesab edirik ki, indiki şəraitdə ölkəmizdə fiskal və monetar siyasətlərin əlaqələndirilməsinin prioritet vəzifələrini, inflyasiya səviyyəsinin hədəflənməsi ilə yanaşı, iqtisadi artımın stimullaşdırılması təşkil etməlidir.

**Nəticə**

Azərbaycanda iqtisadi idarəetmədə çevikliyin yüksəldilməsinə, artım potensiallı institusionallığın gücləndirilməsi kontekstində baxılması məqsəduyğun hesab edilir. Bu prizmadan fikrimizcə, milli iqtisadi qanunvericiliyin təkmilləşdirilməsi məsələləri xüsusi prioritetə malik olmalıdır. Çünki, yeni və bütöv milli iqtisadi sistemin formalaşdırılması ilk növbədə müvafiq iqtisadi nizamın hüquqi bazasının yaradılmasını tələb edir. İqtisadi idarəetmənin çevikliyinin yüksəldilməsində mühim məsələlərdən biri də iqtisadiyyatın institusionallaşmasında şaxələndirmənin genişləndirilməsi hesab edilir. Milli iqtisadiyyatın institusional idarəetmə çevikliyinin təmini istiqamətində görülmüş işləri ümumən məqbul qiymətləndirməklə yanaşı, hesab edirik ki, indiki şəraitdə ölkəmizdə - fiskal və monetar siyasətlərin əlaqələndirilməsinin prioritet vəzifələrini inflyasiya səviyyəsinin hədəflənməsi ilə yanaşı, iqtisadi artımın stimullaşdırılması təşkil etməsi, iqtisadi artıma nail olmaq üçün fiskal və monetar orqanların müxtəlif siyasət tədbirlərinin əlaqələndirməsinin hədəflərin müəyyən edilməsi mərhələsində həyata keçirilməsi məqsədəuyğundur.

## Ədəbiyyat

1. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası, Bakı, 2012.
2. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər".https://azertag.az/xeber/ -1702625
3. Azərbaycan İnvestisiya Holdinqinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı, 07 avqust 2020.
4. "Azərbaycan Respublikası: Dövlətə məxsus müəssisələrdə Korporativ idarəetmə və mülkiyyət" tədqiqat-analitik məruzə, 2017 il www.worldbank.org
5. R.Həsənov Müasir Azərbaycanın sosial-iqtisadi inkişaf modelinin xüsusiyyətləri//Azərbaycanın vergi jurnalı, №2, 2012. -s.103-108.
6. A.R.Həsənli Müasir inkişaf mərhələsində Azərbaycanda iqtisadi şaxələndirmə və pul siyasəti çağırışları, Azərbaycanda iqtisadi islahatların həyata keçirilmə xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu, XVIII buraxılış, səh. 46-59, Bakı, 2018.
7. Нуреев Р.М. Государство и рынок [развитие представлений о роли государства в рыночной экономике] http://ecsocman.hse.ru/text/16209640/
8. https://www.president.az/
9. https://www.economy. gov.az

***Надир Беймамед оглы Акбаров***

***Вопросы обеспечения институциональной гибкости управления национальной экономикой***

***Резюме***

*В статье рассматриваются вопросы институциональной гибкости в системе государственного управления экономикой в Азербайджане, выбора форм и целей экономической политики, совершенствования правовой базы хозяйственной деятельности и системы управления в соответствии с требованиями рыночных принципов. Обобщениями доказывается, что институционализация развития в управлении экономикой фактически обеспечена. В статье отмечается, что повышение гибкости в управлении национальной экономикой целесообразно рассматривать в контексте институционального укрепления. В связи с этим исследование проводилось по трем аспектам. Подробно исследованы особенности совершенствования национального хозяйственного законодательства, диверсификации экономики, хозяйственного механизма и переориентации фискальной политики на цели устойчивого роста и сформированы соответствующие выводы и рекомендации. В качестве основных выводов статьи, в вопросах обеспечения гибкости институционального управления экономикой Азербайджана на современном этапе развития приоритетными задачами координации фискальной и монетарной политик является организация стимулирования экономического роста помимо таргетирования уровень инфляции, для достижения экономического роста было признано целесообразным согласование различных мер политики фискальных и монетарных властей на этапе определения целей.*

***Ключевые слова:*** *управление экономикой, институциональность, диверсификация, законодательство, гибкость, система, эффективность, модернизация, механизм, рост, потенциал.*

***Nadir Baymammad Akbarov***

***Issues of ensuring institutional management flexibility of the national economy***

***Summary***

*The article examines the issues of institutional flexibility in the state economic management system in Azerbaijan, the choice of forms and goals of economic policy, the improvement of the legal basis of economic activity and management system according to the requirements of market principles. It is proved by generalizations that the institutionalization of development in economic management has actually been ensured. It is mentioned in the article that it is appropriate to look at the increase of flexibility in the management of the national economy from the context of institutional strengthening. In this regard, research was conducted from three aspects. The features of improving the national economic legislation, diversification of the economy, economic mechanism and redirection of the fiscal policy to the goals of sustainable growth were investigated in detail and appropriate conclusions and recommendations were formed. As the main conclusions of the article, in the issues of ensuring the flexibility of the institutional management of Azerbaijan's economy in the modern development stage, the priority tasks of coordinating fiscal and monetary policies are to organize the stimulation of economic growth in addition to targeting the inflation level; in order to achieve economic growth, it was considered appropriate to coordinate various policy measures of fiscal and monetary authorities at the stage of determining the goals.*

***Keywords:*** *economic management, institutionality, diversification, legislation, flexibility, system, efficiency, modernization, mechanism, growth, potential*

***Elmi redaktor: i.e.d., dos. Y.Məmmədov***
***Daxil olub: 29.06.2022.***
***Çapa qəbul olunub: 05.07.2022.***